# Ali məktəblərdə imtahan sessiyası davam edir

## Təhsil mütəxəssisləri BDU-da imtahan prosesini izləyib



Təhsil mütəxəssisləri və QHT nümayəndələrindən ibarət monitorinq qrupu Bakı Dövlət Universitetində qış imtahan sessiyasının gedişi ilə tanış olub.

"Azad Müəllimlər" Birliyinin sədri Məlahət Mürşüdlü, "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti, Korrupsiyaya Qarşı Mübarizə üzrə QHT-lərin Məlumat və Əməkdaşlıq Şəbəkəsinin koordinatoru Əliməmməd Nuriyev, "Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz, təhsil üzrə ekspert Nadir İsrafilov əvvəlcə imtahanların gedişini universitetin Tədris Elektron Mərkəzindən izləyib, sonra imtahan keçirilən auditoriyalarda olub və tələbələrlə görüşüblər.

Nümayəndə heyəti, eyni zamanda universitetin elmi-tədqiqat və tədris laboratoriyalarına, mərkəz və muzeylərinə baş çəkib.

Daha sonra monitorinq qrupunun üzvləri ilə Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmovun görüşü olub. Rektor universitetin maddi-texniki bazası, kadr hazırlığı, beynəlxalq əlaqələri barədə danışıb, o cümlədən imtahanların gedişi və bu istiqamətdə görülən işlərdən bəhs edib.

Monitorinq qrupunun üzvləri imtahan prosesinin təşkilindən məmnunluqlarını bildirib, obyektivliyin və şəffaflığın təmin olunması istiqamətində görülən işləri yüksək qiymətləndiriblər. BDU-nun güclü maddi-texniki bazaya malik olduğunu deyən ekspertlər, mütəxəssis hazırlığı, nəzəri biliklərin təcrübədə tətbiqi istiqamətində universitetdə həyata keçirilən tədbir və layihələrdən, yerli və beynəlxalq qrant layihələrində iştirakdan məmnun qaldıqlarını vurğulayıblar.

## UNEC-də imtahanlar jurnalistlərin nəzarəti altında keçirilib



Yanvarın 12-də Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) KİV nümayəndələri qış imtahan sessiyasının gedişinə nəzarət ediblər. "Bilik şəffaf və obyektiv qiymətləndirilməlidir" devizi altında keçirilən tədbirdə nüfuzlu mətbuat orqanlarından iyirmidən çox jurnalist iştirak edib.

Təhsil nazirinin "İmtahan sessiyasının təşkili və keçirilməsi barədə" əmrinə əsasən keçirilən görüşdə Təhsilin Keyfiyyətinin Qiymətləndirilməsi və İdarə Edilməsi Mərkəzinin direktoru Raqif Qasımov "ictimai nəzarətçi"ləri imtahan prosesinin gedişi, nəzarət təlimatları ilə tanış edib. Sonra "ictimai nəzarətçi"lər UNEC-in bütün tədris binalarında keçirilən imtahanlara nəzarət ediblər.

İmtahanlardan sonra jurnalistlər UNEC-in rektoru, professor Ədalət Muradovla görüşüblər. Rektor UNEC-də aparılan islahatlar, universitetin hədəfləri və iş prosesində qarşıya çıxan problemlərdən danışıb, jurnalistlərin suallarını cavablandırıb.

UNEC-də qış imtahan sessiyası fevralın 1-dək davam edəcək. Sessiya boyunca tələbələrin biliyinin qiymətləndirilməsində obyektivliyin təmin edilməsi, şəffaflığın qorunması məqsədilə imtahan prosesi ictimaiyyət nümayəndələrinə açıq keçirilir. İmtahan sessiyası dövründə hər həftənin şənbə günü rektorun "Açıq qapı" günləri təşkil edilir. Bundan başqa, bütün tədris binalarında qərargahlar yaradılıb. Universitetin "Qaynar xətt" (146-1-3) xidməti də müraciətləri operativ araşdırır.

**Niyazi RƏHİMOV,**
*"Azərbaycan müəllimi"*

## Təhsil ekspertləri, media təmsilçiləri Azərbaycan Texniki Universitetində



Təhsil nazirinin "İmtahan sessiyasının təşkili və keçirilməsi barədə" əmrinə əsasən imtahan sessiyasının gedişini izləmək üçün yanvarın 15-də Azərbaycan Texniki Universitetinə (AzTU) mediatur təşkil olunub. Təhsil ekspertləri, media təmsilçiləri və valideynlər auditoriyalarda imtahanların gedişini izləyib, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığın, obyektivliyin təmin edilməsini müşahidə ediblər.

Azərbaycan Texniki Universitetinin rektoru, professor Havar Məmmədov bildirib ki, 2015-2016-cı tədris ilinin payız semestrinin imtahan sessiyasında doqquz minədək tələbə, o cümlədən xüsusi texnika və texnologiya fakültəsində, SABAH qruplarında və TEMPUS layihəsi üzrə təhsil alanlar imtahanları yazılı və test üsulu ilə verirlər. Təhsil nazirinin müvafiq əmrinə uyğun olaraq imtahan sessiyasının gedişinə nəzarət etmək məqsədilə AzTU-da qərargah və Apelyasiya Komissiyası yaradılıb. Qiymətləndirmədən narazı qalan tələbələrin Apelyasiya Komissiyasına ərizə ilə müraciət etmələri üçün lazımi şərait yaradılıb. Mübahisə doğuran məsələlər komissiya tərəfindən araşdırılır, qiymətləndirmədə şəffaflıq və operativlik təmin edilir.

Rektor daha sonra qeyd edib ki, universitetdə tədris prosesi və imtahanların təşkili üzrə bütün məsələlər ali təhsil ocağında yaradılmış elektron universitet portalı vasitəsilə nəzarətə götürülür. Bu zaman həm yazılı, həm də test imtahanlarının nəticələri dərhal həmin sistemdə qeydə alınır. Tələbə test imtahanlarının nəticələrini, cavabları təsdiq etdikdən sonra dərhal kompüterin ekranında görür. Yazılı imtahanlar da test imtahanları kimi ciddi nəzarətə götürülüb. Belə ki, yazılar şifrələnir, sonra yoxlanılır və həmin gün qiymətlər tələbələrə elan edilir. Hər günün sonunda isə bütün imtahanların nəticələri universitetin elektron portalında yerləşdirilir.

Sonra media təmsilçiləri və təhsil ekspertləri universitetin Heydər Əliyev Mərkəzi və Virtual Layihə Texnoloji Tədris Mərkəzi ilə tanış olublar.

**Samirə KƏRİMOVA,**
*"Azərbaycan müəllimi"*

## Azərbaycan Dillər Universitetində imtahan sessiyası müşahidə olunub



Yanvarın 12-də Azərbaycan Dillər Universitetində (ADU) təhsil naziri Mikayıl Cabbarovun "İmtahan sessiyasının təşkili və keçirilməsi barədə" əmrinə əsasən imtahan sessiyasının gedişini izləmək üçün mediatur təşkil olunub. 2015-2016-cı tədris ilinin payız imtahan sessiyasının mövcud qaydalara uyğun təşkili, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığın, obyektivliyin və qərəzsizliyin təmin edilməsi məqsədi ilə universitetin pedaqoji (ingilis dili-alman dili) fakültəsində II, regionşünaslıq və beynəlxalq münasibətlər fakültəsində isə IV kurslarda keçirilən imtahanların gedişini QHT, KİV nümayəndələri və tələbələrin valideynləri izləyiblər. Hər il Azərbaycan Dillər Universitetində imtahanların gedişini izləməyə dəvət aldıqlarını deyən Korrupsiyaya Qarşı Mübarizə Fondunun icraçı direktoru Vasif Mövsümov təmsil etdiyi təşkilatın fəaliyyət istiqamətləri haqqında tələbələrə məlumat verib. O, bir sıra ali təhsil ocaqlarında imtahan sessiyasının gedişi ilə bağlı monitorinqlər apardığını qeyd edib. V.Mövsümov bu monitorinqlərin məqsədinin imtahan zamanı yaranan mənfi halların aradan qaldırılması olduğunu vurğulayıb.

İmtahan sualları ilə maraqlanan Korrupsiyaya Qarşı Mübarizə üzrə QHT-lərin Məlumat və Əməkdaşlıq Şəbəkəsinin üzvü Əhməd Abbasbəyli aparılan monitorinqlərin obyektivliyə xidmət etdiyini deyib. O, yaranan problemlərlə bağlı onlara müraciət etməyin zəruriliyini önə çəkib. Tələbələr imtahanların yüksək səviyyədə, obyektiv keçdiyini bildiriblər.

Qeyd edək ki, izləmə prosesindən sonra QHT nümayəndələri ADU-nun rektoru vəzifəsini icra edən professor Dünyamin Yunusovla görüşüblər. Görüşdə aparılan monitorinqin nəticələri müzakirə olunub və təkliflər bildirilib.

**Şakir CƏFƏROV,**
*"Azərbaycan müəllimi"*

## Azərbaycan Texnologiya Universitetinə mediatur



İmtahan sessiyasının gedişini izləmək üçün Azərbaycan Texnologiya Universitetinə (ATU) mediatur keçirilib. Təhsil naziri Mikayıl Cabbarovun "İmtahan sessiyasının təşkili və keçirilməsi barədə" əmrinə əsasən keçirilən mediaturda 10-dan artıq KİV nümayəndəsi iştirak edib.

Mediatur zamanı ATU-nun rektoru, professor Akif Süleymanov KİV nümayəndələri və imtahanları müşahidə edən valideynlərə məlumat verib ki, universitetdə 2015-2016-cı tədris ilinin payız semestrinin imtahan sessiyasının mövcud qaydalara uyğun təşkili, tələbələrin biliyinin qiymətləndirilməsində obyektivliyin təmin edilməsi məqsədilə bütün zəruri addımlar atılıb, şəffaflığın qorunması üçün valideynlərin iştirakına şərait yaradılıb. Kompüter vasitəsi və test üsulu ilə götürülən imtahanların gedişini hər bir tələbənin valideyni şəxsiyyət vəsiqəsini təqdim etməklə izləyə bilər. Yanvarın 29-dək davam edəcək imtahan sessiyasında qiymətləndirmə kredit sistemi əsasında aparılır.

İlk dəfə imtahanları birbaşa müşahidə edən valideynlər tələbələr üçün yaradılmış əlverişli şəraitdən, onların biliyinin qiymətləndirilməsinin şəffaf və effektiv təşkilindən razılıqlarını dilə gətiriblər.

Media təmsilçiləri və valideynlər universitetin bir neçə auditoriyasında imtahanların gedişini izləyiblər. Daha sonra valideynlərin universitet rəhbərliyi ilə görüşü təşkil olunub. ATU-nun rektoru, professor Akif Süleymanov rəhbərlik etdiyi ali təhsil ocağında tədrisin, kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi istiqamətində son dövrdə görülən işlərdən, aparılan islahatlardan, həyata keçirilən proqram və layihələrdən danışıb. Rektor valideynləri əmin edib ki, universitetin rəhbərliyi və professor-müəllim heyəti tərəfindən təkcə tələbələrdən imtahanların obyektiv şəkildə götürülməsi üçün yox, həmçinin onların imtahanlara daha səmərəli hazırlaşması üçün bütün tədbirlər görülür.

**Mətbuat xidməti**